Azərbaycan.- 2021.- 19 mart. S. 10.

# Gəncədə "Gencesehidleri.az" saytının təqdimatı olub

Təqdimat mərasimində Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki Baş Konsulu Zeki Öztürk, Milli Məclisin deputatı Naqif Həmzəyev, ziyalılar və KİV nümayəndələri iştirak ediblər. Tədbirin əvvəlində Vətən uğrunda canından keçmiş şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad olunub.

Sonra Niyazi Bayramov çıxış edərək Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsinin daim uca tutulduğunu bildirib. Qeyd edib ki, şəhid ailələri dövlətin diqqət və qayğıkeşliyi ilə əhatə olunublar. Canını Vətən uğrunda qurban verən igid oğullarımızın xatirəsinin yaşadılması və onların tanıdılması isə hər bir azərbaycanlının borcudur. Bu baxımdan yeni yaradılan sayt Azərbaycanda bir ilk olaraq xüsusi əhəmiyyət kəsb edir.

Daha sonra "Gencesehidleri.az" saytı haqqında tədbir iştirakçılarına ətraflı məlumat verilib. Bildirilib ki, sayt Gəncə Şəhər İcra Hakimiyyətinin təşəbbüsü, "Zaferoğlu İnşaat"ın dəstəyi ilə "Netqraf Group" tərəfindən hazırlanıb. Layihənin əsas məqsədi Vətən uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsini yaşatmaqla onları tanıtmaqdır. Sayt Gəncənin Birinci Qarabağ və Vətən müharibələri, mülki və digər şəhidləri barədə məlumatları vahid platformada toplayıb. Burada ümumilikdə 600-ə yaxın şəhid barədə məlumat yerləşdirilib.



Saytda "Layihə haqqında", "Tariximiz", "Şəhidlərimiz", "Media", "Hesabat", "Faydalı", "Xatirə dəftəri" bölmələri yaradılıb. Sonuncu bölmədə şəhidliyin ailə üzvləri, yaxınları, sinif, tələbə, iş və döyüş yoldaşları sözügedən bölməyə daxil olaraq, şəhid barədə öz xatirələrini oxucularla bölüşə bilirlər.

Tədbirdə çıxış edən "Zaferoğlu İnşaat"ın rəhbəri Zəfər Məmmədov vurğulayıb ki, layihənin davamı olaraq, Gəncənin Şəhidlər xiyabanındakı məzarların üzərinə QR kodlar yerləşdiriləcək. Xiyabanı ziyarətə gələnlər öz telefonlarını həmin QR kodların üzərinə tutaraq sayta keçid edə və şəhid haqqında ətraflı məlumat ala biləcəklər.

AMEA-nın Gəncə Regional Bölməsinin sədri Fuad Əliyev isə bildirib ki, Gəncə şəhidləri barədə məlumatların yer aldığı monoqrafiya çapa hazırlanır. Yaxın günlərdə monoqrafiyanın ilkin variantı müzakirə üçün təqdim olunacaq.

Təqdimat mərasimində çıxış edən teatrşünas-tənqidçi Anar Bürcəliyev saytın yaradılmasını Vətən uğrunda canından keçən igid oğullarımıza və şəhid ailələrinə göstərilən diqqətin nümunəsi kimi qiymətləndirib. Şəhid ailəsi olaraq hər zaman dövlətin və şəhər rəhbərliyinin qayğıkeşliyini hiss etdiyini deyən A.Bürcəliyev bu işə əmək sərf edən hər kəsə minnətdarlığını bildirib.

Tədbirdə Zeki Öztürk, Naqif Həmzəyev, "Gəncənin səsi" qəzetinin baş redaktoru Rəfiqə Sadıqova və başqaları çıxış edərək yeni yaradılan saytın şəhidlərimizin ölkə və dünya miqyasında tanıdılması baxımından önəm kəsb etdiyini bildiriblər. Vurğulayıblar ki, Azərbaycan xalqı öz şəhidlərini heç vaxt unutmayacaq, onların xatirəsi daim uca tutulacaq.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***